

# Mənim müharibəm

## Gördüklərim, düşündüklərim və ağrılarım (may, 1993, aprel, 1999)


***Nemət VEYSƏLLİ,***
***Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, redaktor***


**(əvvəli ötən saylarımızda)**

***Vaxtında yaza bilmədiklərim...***

Qısa arayış: Bayramov Vahid Xaməd oğlu 1955-ci ildə Qərbi Azərbaycanın Allahverdi rayonunda anadan olub. Sonralar ailələri Gəncəyə köçüb. Orta məktəbi qurtardıqdan sonra Musiqi Texnikumuna daxil olub, kamança şöbəsini bitirib. 1979-1985-ci illərdə Tomsk Dövlət Universitetinin hüquq fakültəsində təhsil alıb. Ali hüquq məktəbini qurtardıqdan sonra təyinatla Yəhudi Muxtar Vilayətinə rayon prokuroru vəzifəsinə təyin edilib. Bir müddət Vilayət prokurorluğunda baş müstəntiq, sonralar SSRİ Baş prokurorluğunda (1990 və 1991-ci ilin axırlarına kimi) mühüm işlər üzrə müstəntiq işləyib. Bu illərdə SSRİ Baş prokurorluğuna ölkənin ən yaxşı istintaqçıları cəlb edilmişdi.

SSRİ süqut edəndən sonra kim hara istəyirdi oraya da gedirdilər. Bayramov üçün yaxşı perspektivlər də açılmışdı. O, yenidən Yəhudi Muxtar Vilayətin prokurorluğuna mühüm işlər üzrə müstəntiq, Vilayət prokurorunun müavini, Voronej Vilayətində rayon prokuroru işlədi. Yəhudi Muxtar Vilayətində B.Bayramovla çiyin-çiyinə çalışan həmyerlilərimiz - Elxan Əsgərov, Niyazi Vəlixanov, İsmayıl Səlimov kimi hüquqşünaslar da vardı və onların hamısı Rusiya Federasiyasında qalıb prokurorluq orqanlarında çalışırlar.

Vahid Bayramov 1992-ci ildə Rusiyada sözsüz həsəd aparılacaq vəzifələrini atıb Azərbaycana gəlir. Üç ay işsiz qalır. Bir müddət Naxçıvan Muxtar Respublikasında, sonralar Şuşa rayon prokurorunun müavini işləyir. Bir il Ağdamda yaşayır, həmin vəzifəni icra edir. O illərdə respublika hərbi prokurorluğunda yüksək vəzifədə, bu qurumun formalaşmasında xüsusi xidmətləri olan Rövşən Əliyev Qubadlı qarnizon hərbi-ərazi prokuroru vəzifəsini B.Bayramova təklif edir və o da bu təklifi həvəslə qəbul edir. Ailəlidi, bir oğlu, bir qızı var.

***

- Doğrudur, 1992-ci ildə Qubadlı qarnizon hərbi-ərazi prokurorluğu, onun ancaq atributları vardı: ştatlar, möhür, ştamp. Cəbhəyə xoş niyyətlə gələnlərlə yanaşı məqsədi, məramı dumanlı dəstələr də çoxdu. Necə deyərlər, belə pərakəndə, başıpozuq qurumların əl-ayağını bir yerə yığmaq, onlara hüquqi cəhətdən kömək etməyə çalışırdıq. Bu tərəflərdə Qubadlı, Zəngilan, Cəbrayıl, Laçın könüllüləri, hərbi vəzifəliləri ilə yanaşı, respublikanın digər bölgələrindən də gənclər axını vardı. Güclü külək, hava burulğanı ərəfəsində dəniz nə vəziyyətdə olursa - bu tərəflərdə də vəziyyət o cürdü. Erməni silahlı birləşmələri sürətlə ölkəmizin içərilərinə doğru irəliləyirdilər. Necə olursa-olsun, bu vəbanın, bəlanın qabağını almaq lazımdı. Odur ki, başqa istiqamətlərdən fərqli olaraq Füzuli bölgəsinə canlı qüvvə, silah-sursat daha çox cəmləşmişdi.

- Yəqin ki, çətinliklərlə də üzləşmisiniz?

- Zahirən, strateji baxımdan minlərlə əyninə forma geymiş adamlar hərbiçiyə, orduya oxşayırdı. Detalları araşdırırdın, çağırışçıların peşəkarlığını, hərbi nizam-intizama necə əməl edilməsinə diqqət yetirirdin, görürdün yox, bu ordu deyil, insan toplusudu, - silahlarla peşəkarcasına rəftar edə bilmirlər, nə üçün bu yerlərə gəldikləri də heç məlum deyil. Bu cür adamların amalları, məqsədləri də qatı dumana bürünmüşdü. İlk növbədə zabitlərin hazırlığı aşağı səviyyədədir, hərə öz bildiyini həyata keçirirdi.

Hətta bir dəfə cinayətkarı həbs etmək istəyəndə prokurorluğun əməkdaşlarına qarşı zor işlətmişdilər, onlara güc tətbiq edib mövqelərə aparmışdılar. Ordu strukturlarında dövlətin siyasəti hiss edilmir. Çətinliklərimiz başımızdan aşır.

Formalaşmaqda olan ordu hansı çətinliklərlə üzləşirsə, Qubadlı qarnizon hərbi-ərazi prokurorluğu da həmin problemlərlə üzləşir. Rəhbəri olduğum prokurorluqda doqquz nəfər hüquqşünas çalışır. Üç nəfər mənim müavinimdir, yeddi nəfər isə sıravi müstəntiqdi. Bu hüquqşünasların heç biri müharibəyə qədər prokurorluq orqanlarında çalışmayıblar. Müavinlərim də çıxıb gediblər, qalmışam tək.

Hərə öz yerindən bərk-bərk yapışıb. Bizimlə ünsiyyətdə olan adamlar qan görüb, əllərində silah var. Mülki qanunlarla, insanlarla işləməyə nə var? Təkrar edirəm, silahlı, qan görmüş adamlarla işləmək çox çətindi, həm də təhlükəlidi.

Bu yaxınlarda qəribə bir hadisəylə üzləşmişəm. Döyüş bölgələrində olan leytenant toy edib, ailə qurub. Komandanlığın ona verdiyi icazə sənədinin müddəti qurtarıb, o, hərbi hissəyə üç gün gecikib. Əlbəttə, belə olmaz, bu hərbi cinayətdir. Amma məsələnin mahiyyətini araşdırdım, komandanlıqla dəfələrlə söhbət apardım, nəhayət zabiti istintaqdan azad etdik, buraxdıq. Sonralar, işimlə bağlı həmin zabitin qulluq etdiyi hərbi hissəyə getdim. Döyüşçülər məni yaxşı tanıyırlar. Prokurorluğun ünvanına xoş sözlər söylədilər.

Hərbi nizam-intizamları pozduqlarına görə əsgəri, zabiti həbs etmək, bilirsiniz, nə deməkdir? Cəza alan hərbiçilərin sonrakı həyatları alt-üst olur. Hər hansı bir əyninə hərbi forma geymiş şəxsə cəza verməzdən qabaq gərək onun haqqında yaxşı-yaxşı fikirləşəsən. Hərbi cinayətlərin humanist məqamlarını axtarasan.

Təəssüf ki, öz ərazimizdə - Qubadlıda deyilik. Bu da işimizə əngəl törədir. Fərarilik kifayət qədərdi. Müstəntiqlər işlərini qurtarmaq üçün bütün respublikanı gəzməli olurlar. Hərbi polis də yoxdur. Hər şeyi öz qüvvəmizlə həll edirik. Dəftərxana qovluqlarını, dəftər, qələmi də öz vəsaitimiz hesabına alırıq.

- Neçə ildi buradasınız, ordunun əvvəlini də, indisini də görmüsünüz. Müqayisə aparmağa imkanınız var?

- Böyük fərq var. Ordumuz, tərifləmək olmasın, az qala sabiq SSRİ hərbi standartları səviyyəsinə yüksəlib. Təkrar döyüşlər başlasa, düşünürəm ki, daha geri çəkilməyəcəyik.

- Azərbaycan əsgəri haqda fikirlərinizi bilmək istəyirəm.

- Çox böyük, nadir insanlardı. Quru çörək yeyirlər, ayaqlarına idman çustu geyirlər, döyüşürlər. Özlərinə psixoloji, aylı-ulduzlu aləm yaradırlar, fikrən, xəyalən "volva"larda, "toyoto"larda gəzirlər. Ətrafdakı haqsızlıqlar, sosial-qeyri bərabərlik onlara çox pis təsir edir. İnanmıram ki, başqa ölkələrin əsgərləri belə haqsızlıqlara dözsünlər.

Bizi heç kim başa düşmür. Deyirlər ki, ərazini tərk etməməlisən. Axı, düşünmürlər ki, mənim də ailəm, şəxsi qayğılarım var. Bu yaxınlarda evə getmişəm, oğlum anasına nə desə yaxşıdır? "Ana, atam bizə gəlib". Aylarla övladlarımın üzünə görmürəm, uşaqlar yadlaşırlar.

Qaçqınlarla çiyin-çiyinə, kazarma şəraitində yaşayırıq. Qaçqın qadınların, uşaqların, hinduşkaların səsinə, vallah, daha dözə bilmirəm. Əsəblərim pozulub.

- Çox sayda hərbçi həbs edilir. Bunların ordu quruculuğuna təsiri varmı?

- İnsanı cəza çəkmək prosesi qorxuzur. Beş-on adam həbs etməklə məsələ düzəlmir, istədiyimiz xətt axarına düşmür. Təkrar edirəm, beş-on adamı həbs edirsən - bu qalanlara, yüzlərlə hərbiçiyə dərs olur, onlar nizamnamədən kənar addım atmaqdan çəkinirlər. Bütün bunlar profilaktik tədbirlərdi.

- Əsgərlərlə görüşləriniz olurmu?

- Görüşlər deyəndə ki, onlarla biz elə bir yerdəyik... Onlarla bir yerdə geri çəkilmişəm, mühasirəyə düşmüşəm.

- Bəs indi düşdüyünüz çətin vəziyyət haqda nə deyərdiniz?

- Qubadlının, Zəngilan və Cəbrayılın işğalı ilə bağlı icradatımızda tamamlanmamış xeyli iş var. Bunların hamısını yekunlaşdırmaq lazımdı. İndi də prokurorluğun ləğv ediləcəyi xəbəri ortalığa atılıb. Bəs mənim, müstəntiq dostlarımın bu neçə illərdə çəkdikləri necə olsun? Rəhbər dairələrinin arqumentləri də budur ki, guya Qubadlı qarnizon hərbi-ərazi prokurorluğunun işi azdı. Bəs bu neçə illərdən bəri olmazın əziyyətini çəkən hüquqşünasların sonrakı taleləri necə olacaq?

Onlar neçə illərdi olmazın zülmlərini çəkiblər? Qubadlı, Zəngilan, Cəbrayıl yollarında nələr görməmişlər? Hansı əzablardan, sarsıntılardan keçməmişik? Məgər, Füzuli qarnizon hərbi-ərazi prokurorluğunun, Fəzail Ağayevin işi azdı?

Deyirlər ki, Qubadlı qarnizon hərbi-ərazi prokurorluğu prezidentin fərmanı ilə ləğv edilib. Bu neçə vaxtda çəkdiyim əzabların müqabilində elə bilirdim mənə mükafat, vaxtından qabaq rütbə verəcəklər - axırı da, bax, belə. 28.09.95, Bala Bəhmənli".

***Evimizi istəyirəm...***

50-ci illərə kimi... qabaqca taxtadan, iri ağac millərə söykənmiş pilləkənlərimiz həyətə düşürdü. Axırıncı, eyvandan həyətə düşən sonuncu pilləkən tut ağacının gövdəsinə söykənirdi. Həyətə düşən pilləkənləri atam 1929-1930-cu illərdə daş, ikimərtəbəli evimiz tikilən zaman düzəldilmişdi. Sonralar, 1960-1962-ci illərdə köhnəlmiş qəzalı vəziyyətə düşmüş, özülləri çürümüş, pilləkənləri həyətə düşən tərəfdən yox, aynabəndimizin sağ tərəfinə çıxartdıq. Haradansa Çartazdanmı, Herherdənmi qoca, əldən düşmüş bir erməni bənnası-ustası tapdıq. O, ağır-ağır, köhnə, taxtadan düzəldilmiş pilləkənlərə baxdı, ölçdü-biçdi və başladı iri-iri qaya daşlarından pilləkən düzəltməyə.

Erməni ahıl çağında idi. Əldən düşmüşdü. Amma hələ daş qaldırmağı, palçıq qatmağı bacarırdı. O xüsusi fəndlə iri-iri qaya daşlarını itələyib daş pilləkənin kiçik meydançasına qaldırıb hörürdü və beləliklə, beş-on gündən sonra yeni pilləkənimiz hazır oldu. Hətta o pilləkənin evimizin ikinci mərtəbəsinə, həyətdən eyvana qalxan hissəsindən giriş qapısı da qoydu.

Mahnılarda deyildiyi kimi, evimizin arxası, arxa divarları qayalara söykənirdi, kiçik qayalıqlar bir-birinə söykənmişdi. Qaya silsiləsi düz evimizin arxasına baxırdı. Sol tərəfdə isə - silsilə qayalıqdı. Dağlar, təbiət qoynunda böyüməyənlərçün evimizin arxasındakı bu qayalıqlar əsl dağdı. Təbiət evimizin sol cinahına düşən qayalıq silsiləsini qat-qat, mərhələ-mərhələ yaratmışdı. Qaya silsiləleri, mərhələləri arasında bir-iki addımlıq döşəməsi qara, qırmızıya çalan qumluqdu. Yadımdadır, yaz gələndə qayalıqlardan kəklikotu yığardıq, sal qayaların, daşların üstünə iri-iri, parça-parça Naxçıvan duzu tökərdik ki, mal-qoyun onu yalasın. Anam yuduğu, təmizlədiyi allı-güllü yorğan, döşəyi, gəvəni, palazları qayaların üstünə sərərdi. Günəş dan yerindən çıxanda, onun şüaları düz gəvələrin, palaz və kilimlərin min rəngə çalan illərinin üstünə düşürdü. Ətrafdan baxırdın - elə bil qayanın üstünə günəş qonmuşdu.

Bir az aralıda qonşuların - Əziz nənənin, Balaş və Dadaş dayının - Mustafayev qardaşlarının, Güllü xalanın xırıltılı səsi eşidildi. Həyət-bacada, Güllü xala, Şükür və Xoxu hərəkət edirdilər.

Vallah, Rza Rzayev evimizin sol tərəfində, az qala bir hektarlıq sahədə bir dağ salmışdı ki... gəl görəsən. Səhər-axşam baxırdın, alma və armud, fındıq, qoz, ərik və şəftəlilər adamın üzünə gülürdü. Bağ Qarabağda, ayda-ildə bir dəfə əsən güclü küləyin qabağını alırdı.

Son illər Beyləqanın tozlu-torpaqlı yerlərində qaçqınçılıq həyatı yaşayan, Veysəllidə qoyub gəldiyi həyətinin xiffətini, dərdini çəkə-çəkə çarəsiz dərd tapıb dünyasını dəyişən kiçik qardaşım bizim öz həyətimizdə də gözəl meyvə bağı salmışdı. Ağacları əkmək üçün çalalar qazmışdı, əkdikləri ağaclar əyilib-bükülməsin deyə, ip tutmuşdu. Əkdiyi ağaclar göylərə boylanmışdı, düppədüz, oxlov kimiydilər. Artezianın buz kimi suyunu da həyətimizə çəkmişdi. Heç kimin təsəvvürünə gətirmədiyi, heç kəsin gözləmədiyi halda, ilk dəfə becərilmiş, xam torpaqda - həyətimizdə pomidor, yemiş tağları, kartof, badımcan, xiyar peyda olmuşdu. Düz noyabrın, dekabrın axırlarına qədər o bostandan qızarmış və göy pomidor, badımcan, iri-iri istiot yığırdıq.

Günlərin bir günü, 1992-ci il fevralın 21-dən 22-nə keçən gecə, erməni silahlı birləşmələri kəndimizi, o cümlədən bizim evimizi, həyətimizi, əkdiyimiz meyvə ağacların darmadağın, bizi dünyanın müsibətlərinə düçar etdilər.

Yaş həddim dağların zirvəsinə qalxıb. Yəqin ki, günlərin bir günü o zirvələrdən aşağılara - əbədiyyət dünyasına yuvarlanacam. Son nəfəsimdə, son günlərimdə evimizi, həyətimizi görmək istəyirəm. Evimizi görmək istəyirəm...